DOI: https://doi.org/10.36719/2663-4619/89/246-252

**Qəhrəman Rüstəmov**
Bakı Dövlət Universiteti
magistrant
qehremanr@list.ru

# KOLİN KAEPERNİCK NÜMUNƏSİNDƏ İDMANDA İRQİ AYRI-SEÇKİLİYƏ QARŞI HÜQUQİ MÜBARİZƏNİN ANALİZİ

**Xülasə**

Müasir cəmiyyətlərdə müxtəlif irqlərə mənsub insanlar bir yerdə yaşaya bilsələr də, bəzən müxtəlif səbəblərdən irqçilik problemi ilə qarşılaşmalı olurlar. İdman bütün irqi yanaşmalardan asılı olmadığı üçün cəmiyyətlər arasında sosial-mədəni əlaqələr qurur. Buna baxmayaraq, idmanda zaman-zaman irqçilik problemləri müşahidə oluna bilər. Bu araşdırmada Amerikan Futbolu oyunçusu Kolin Kaepernickin məruz qaldığı irqçi davranlışların hüquqi analizindən danışılır. Belə ki, Amerikada baş verən irqçi davranışlara qarşı milli marş protestlərini başladan Kolin Kaepernick həmin protestlərdən sonra onun irqçi davranışlara məruz qalması nəticəsində oyunçusu olduğu “49 ERS” klubu ilə aralarındakı müqaviləyə mart ayında xitam verdikdən sonra maraqlı bir formada heç bir klub ilə müqavilə bağlaya bilməmiş və bunun səbəbinin klublar arasında əvvəlcədən onun heç bir kluba transfer edilməyəci barədə gizli formada razılığa gəldiklərini iddia edərək NFL-ə qarşı şikayət ərizəsi ilə müraciət etmişdir. Həmin şikayətin məhz idman hüququ aspketindən analizi aşağıdakı məqalədə öz əksini tapmışdır.

***Açar sözlər:*** *idmanda irqi ayrı-seçkilik, Kolin Kaepernick, amerikan futbolu, idman hüququ, idman yarışları, rasizim, irqçilik*

**Gahraman Rustamov**
Baku State University
master student
qehremanr@list.ru

## An analysis of the legal battle against racial discrimination in sports in the case of Colin Kaepernick

**Abstract**

Although people of different races can live together in modern societies, sometimes they have to face the problem of racism for various reasons. Since sport is independent of all racial attitudes, it builds socio-cultural ties between societies. Nevertheless, problems of racism can be observed in sports from time to time. This study discusses the legal analysis of the racist behavior of American football player Colin Kaepernick. So, Colin Kaepernick, who started the national march protests against the racist behavior in America, after those protests, he was unable to sign a contract with any club after terminating the contract with the "49 ERS" club, where he was a player, in March as a result of being exposed to racist behavior. He filed a complaint against the NFL claiming that the reason for this was that the clubs had previously agreed in secret that he would not be transferred to any club. The analysis of that complaint from the aspect of sports law is reflected in the following article.

***Keywords:*** *racial discrimination in sports, Colin Kaepernick, American football, sports law, sports competitions, racism, racial discrimination*

## Giriş

Müasir dövrdə bu günədək irqi ayrı-seçkilik öz aktuallığını saxlamaqdadır. Bəs nədir bu irqi ayrı- seçkilik? Haqqında danışılanda sanki başqa bir planetdə var olan ifrat dərəcədə mənfi bir əməldən danışırmış kimi hiss etdirən irqçilik, müasir dövrümüzdə özü və gəldiyi yer haqqında bizi daim təəccübləndirir. Bəşəriyyətin yaşadığı bütün ağrılara baxmayaraq, irqçi söhbətlər və tətbiqlər heç vaxt bəşəriyyətin gündəmindən düşməmişdir. Müasir dünyada multikulturalizm və tolerantlıq diskurslarının populyarlığı, təəssüf ki, praktikada özünü birüzə verə bilmir. Bəlkə də ən irqçi cəmiyyətlər Qərbin ən qabaqcıl cəmiyyətləridir və bu cəmiyyətlərdə inteqrasiya ifadəsi altında fərqlilikləri mənimsəmək və ya istisna etmək üçün ciddi addımlar atılmalıdır.

"İrq, rasse" kimi latın mənşəli sözlər irq sözünün qarşılığı kimi, qərb dillərində irqçilik termini üçün isə irqçilik və ya rassismus ifadəsi istifadə olunur. Qərb dillərində bu terminlər irqin insan xüsusiyyətlərinin və imkanlarının əsas müəyyənedicisi olduğuna və irqi xüsusiyyətlərin bir irqin digərindən üstünlüyünə səbəb olduğuna inamı ifadə edir (Webster's Ninth New Collegiate Dictionary, 1991). Ərəb dilində "kök, bitki gövdəsi, yarpaq gövdəsi, damar, ilkin, irsi xüsusiyyət, nəsil, mənşə, əcdad" mənalarını verir. İslam dövründə də Cahiliyyət dövrünün məfhumu olan "əsabiyyə" sözü oxşar mənada, lakin daha çox rədd edən bir yanaşma ilə işlənmişdir. Lakin bu söz müasir anlayış olan irqçilik mənasından uzaq idi və ümumiyyətlə, tayfaçılıq çərçivəsində məzmun daşıyırdı.

İdman − cinsindən, rəngindən, yaşından, milliyyətindən və dinindən asılı olmayaraq milyonlarla insanı bir araya gətirən bir vasitədir. Bu səbəbdən, azlıqların yalnız rəqabətli idman növlərini deyil, həm də asudə vaxtlarını əhatə etdiyi üçün idman fəaliyyəti ilə cəmiyyətə inteqrasiya oluna biləcəyi düşünülür. Başqa sözlə, idman tədbirlərinin irqçilik, ayrı-seçkilik və təcridetmə ilə mübarizə aparmaqla yanaşı, müxtəlifliyin qəbul edilməsini və qarşılıqlı hörməti təşviq etmək üçün ideal platforma ola biləcəyi nəzərdə tutulur (FRA, 2010). İdmanın bəşəri dəyərləri inkişaf etdirmək potensialı inkişaf etmiş ölkələrin marağını artırmışdır. 2009-cu ilin dekabrında Lissabon müqaviləsinin qüvvəyə minməsi ilə artıq Avropa İttifaqının idman sahəsində aydın mandatı yarandı. Müqavilənin müddəalarına görə, idman yarışlarında ədalətliliyi və aşkarlığı təmin etmək, idmana cavabdeh olan orqanlar arasında əməkdaşlığı təşviq etmək, bütün idmançıların, xüsusilə də gənc idmançıların fiziki və mənəvi bütövlüyünü inkişaf etdirmək, idmanın Avropa miqyasında inkişaf etdirmək məqsədi daşıyır. Bundan əlavə, birlik bütün kontekstlərdə "cins, irq, etnik mənsubiyyət, din, inanc, əlillik, yaş və ya cinsi oriyentasiya" ayrı-seçkiliyinə qarşı mübarizəni məcburi edən siyasət hazırlayıb və bu siyasətə uyğun olaraq fəaliyyətini həyata keçirməyə başlayıb (Lissabon müqaviləsi).

Buna baxmayaraq, Avropa İttifaqının Əsas Hüquqlar Agentliyi (FRA) müxtəlif idman növlərinə və onların təcrübə səviyyələrinə diqqət yetirərək, idmanda irqçilik, ayrı-seçkilik bağlı araşdırma aparmışdır. Bu araşdırmalar nəticəsində bildirilmişdir ki, ötən illərdə əldə edilmiş əhəmiyyətli irəliləyişlərə baxmayaraq, idman irqçilik və etnik ayrı-seçkiliklə bağlı bir sıra problemlərlə üzləşməkdə davam edir. Xüsusilə həvəskar səviyyəli idman və ya liqalarda belə hadisələrə tez-tez rast gəlinir. Lakin bəzi ölkələr bu hadisələrin qarşısının alınması istiqamədində qəti şəkildə tədbirlər həyata keçirərək idmanda irqçilik və irqi ayrı-seçkiliyi cinayət hesab edir və onlar izləmək üçün monitorinq sistemləri yaratmışdırlar.

Qeyd etmək lazımdır ki, idmanda irqçilik mediada müntəzəm müzakirə mövzusu olsa da, sırf idmanda irqçiliyin hüquqi müstəvidə araşdırılması barədə məqalələr azlıq təşkil edir. Futbol dünyada ən populyar idman növü olduğundan idman anlayışı və irqçiliklə bağlı araşdırmalar ümumiyyətlə bu qolla bağlıdır. 2020-ci ilə kimi Google Scholar-dan "idmanda irqçilik" anlayışı ilə bağlı 3720 və "futbolda irqçilik" anlayışı ilə bağlı 1510 nəticə var. İngilis dilində eyni sözlər axtarıldığında "idmanda irqçilik" anlayışı ilə bağlı 281000 nəticə və "Futbolda irqçilik" anlayışı ilə bağlı 123000 nəticə var. Bu nəticələr futbolun populyarlığını göstərməklə yanaşı, həm də idmanda irqçiliyin daha çox futbolda edildiyinin göstəricisidir. Futbol dünya üzrə 1,5 milyondan çox komanda və 300 000 klubla oynanan idman növüdür. Son on ildə idmanda irqçiliyin qavranılması və bilinməsi, xüsusən də futbol kimi populyar qollarda irqçiliyin qarşısının alınması barədə hərəkətə

keçmə ehtiyacını ortaya çıxardı. İdman sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlar və maraqlı tərəflər tərəfindən verilən müxtəlif bəyannamələr idmanda irqçilik və ayrı-seçkiliyə qarşı daha fəal yanaşmanın zəruriliyini təsdiqləyir. Avropa Futbol Federasiyaları İttifaqı (UEFA), Dünya Futbol Assosiasiyaları (FIFA) və Avropa İttifaqının siyasi qurumları kimi futbolun rəhbər orqanları idmanda irqçilik və etnik ayrı-seçkiliklə bağlı problemlərin olduğunu qəbul edib və bu problemlərin həllinə dəstək verdiklərini bəyan etmişdirlər (Racism in Sports, 2021: 42).

İrqçi davranışların özünü biruzə verdiyi idmanın digər sahələrindən biri də Amerikan Futboludur. İdman sferasının gündəmindən düşməyən, idmanda idmançılara qarşı irqçi davranışlar dedikdə ağıla gələn ilk case məhz Kolinn Kapernick caseidir. Əsas hadisə 2016-cı il mövsümünün mövsümöncəsi oyunları zamanı Amerika himni səsləndirilərkən Kaepernickin ayağa qalxmaması ilə başladı. Kaepernik ölkədə polisin qaradərililərə qarşı qeyri-insani hərəkətlərinə etiraz edəcəyini açıqlayaraq qaradərililəri təsadüfən və ya lazımsız güc tətbiq edərək öldürən polislərin mühakimə olunmadığına və ya çox az cəza ilə xilas edildiyinə diqqət çəkib və buna diqqət çəkmək üçün etirazını davam etdirib. Onun metodu mübahisəlidir, lakin qaradərililərə qarşı bu irqçilik Amerika üçün böyük problemdir. Əksər ştatlarda polis cinayət törədirsə, daha qərəzsiz olmaq üçün dövlət məhkəmələri əvəzinə bu cinayətlər, qeyri-dövlət qurumları tərəfindən araşdırılır və bu araşdırma çox uzun çəkir. Nəticədə onlar "ödənişli məzuniyyət" götürmüş kimi işdən çıxarılır və müəyyən müddət keçdikdən sonra işə bərpa olunurlar. Polisin müdafiəsi isə həmişə eynidir, əllərində bıçaq var idi və bu səbəbdən biz silahdan istifadə etmişik və ya dayanma xəbərdarlığına əməl etməmişdirlər, nəticədə atəş açdıq. Kaepernick etdiyi etirazla bağlı çıxış edərkən bildirmişdir: "Mən bu himnin üstündə ayağa qalxıb qaradərililərə zülm edən bir ölkənin bayrağına hörmət etməyəcəyəm. Mənə görə bu, futboldan böyükdür, əgər etiraz etməsəm, eqoizm olardı. Küçələrdə cəsədlər var, insanlar muzdlu cığırlarla ayrılır, törətdikləri qətllər ucuzlaşır".

Yuxarıda qeyd olunan protestlər davamlı xarakter alaraq ölkədəki digər idmançılar tərəfindən Amerikada yaşayan qaradərililərə qarşı edilən irqi ayrı-seçkiliyə qarşı mübarizə üsuluna çevrilmiş və həmin hərəkat dövlət səviyyəsində və dövlət rəsmiləri tərəfindən müzakirə edilmişdir. Koopernicik oyunçusu olduğu "49 ERS" klubu ilə aralarındakı müqaviləyə mart ayında xitam verdikdən sonra maraqlı bir formada heç bir klub ilə müqavilə bağlaya bilməmiş və bunun səbəbinin klublar arasında əvvəlcədən onun heç bir kluba transfer edilməyəci barədə gizli formada razılığa gəldiklərini iddia edərək NFL-ə qarşı şikayət ərizəsi ilə müraciət etmişdir.

Yuxarıda qeyd olunan şikayət əsasında aparılmış məhkəmə prosesi qapalı şəkildə keçirilmişdir. Lakin ümumi şəkildə prosesə nəzər saldıqda gələcəkdə bu tip hallarla qarşılaşacaq olan idmançıların və onların hüquqlarını müdafiə edən idman hüquqşünaslarının bu "case"dəki halları nəzərə alaraq hansı hissələrə diqqət yetirməli olduğunu analiz etmək lazımdır.

Bildiyimiz kimi müvafiq hüquq mühafizə orqanına məhkəməyə iddia ilə müraciət etmək hər kəsin subyektiv hüququdur. Lakin verilmiş iddianın təmin olunması üçün ilk öncə iddia predmetini özündə biruzə verən maddi sübutlara ehtiyac vardır. Kapernicikin işi maddi sübutlar cəhətdən zəifdir. Onun iddiası NFL klubları arasında onun digər klublarla müqavilə bağlamasına qarşı arasında sövdələşmənin olmasıdır. Bu sövdələşməni sübuta yetirmək üçün ilkin ortaya atılmış ssenari həmin ilin son aylarında NFL klublarından birininin oyunçu trasnferi ilə bağlı bir araya gəlməsi olmuşdur. Bu müzakirənin predmeti məhz Kapernick olmuşdur. Lakin həmin klub son qərarında Kapernick ilə deyil başqa bir oyunçu ilə müqavilə bağlamaq qərarına gəlir. Hətta müqavilə bağladıqdan sonra isə Kapernickin qaradərilərə qarşı olunan irqi ayrıseçkiliyə qarşı etdiyi milli marş protestindən çəkindikləri və narahat olduqlarını öz çıxışlarında bildirmişdirlər. Lakin bu Kapernicə qarşı irqi ayrı-seçkiliyiin əvvəlcədən klublar arasında hər hansı bir sövdələşmənin olmasını sübuta yetirmir. Bunun səbəbi isə klub hər hansı bir oyunçunu öz komandasına transfer etməkdə sərbəst olmasıdır. Onun Kapernick ilə müqavilə bağlamaq kimi bir öhdəliyi mövcud deyildir. Kapernickin bu sövdələşməni sübuta yetirmək üçün bir klubun deyil bir neçə klubun bu mövzuda razılığa gəlməsi vacibdir.

Kaepernickin klublar tərəfindən əvvəlcədən razılığa gələrək qurban edildiyinə dair fərziyyə və ya inamdan daha çoxuna ehtiyacı var. Ola bilsin ki, onun əlində maddi sübut olaraq e-poçtu, mətni,

sosial media mesajı, videosu, səs yazısı, əlyazma qeydi və ya şahid ifadəsi var. Ola bilsin ki, onun agentləri Jeffrey Nalley və Sean Kiernan belə sübutlara malikdir. Nə olursa olsun, sübutlar aydın şəkildə göstərməlidir ki, iki və ya daha çox komanda Kaepernick-ə NFL-də oynamaq imkanını rədd etmək üçün sövdələşmə ediblər.

Məhkəmə prosesi davam edən zaman müxtəlif media şərhçiləri qeyd etmişdirlər ki, Kaepernick-dən aşağı statusda olan oyun qurucular NFL siyahılarındadır. Bu oyun qurucululardan bəziləri hətta NFL oyunlarına da da iştirak edirlər.Bəs bu onun ayrı seçkiliyə məruz qalmasının sübutudurmu?

Xeyr, yuxarıda qeyd etdiyimiz kimi, bəzi komandalar Kaeperniki sevmədikləri üçün istəməyə bilərlər. Mübahisə yaratmadığına və ya diqqəti başlanğıc müdafiəçidən yayındırmadığına və ya komandanın hücum sxeminə daha yaxşı uyğunlaşdığına görə onlar əvəzedici qismində daha aşağı oyunçu seçə bilərlər. Belə bir yanaşmanın komandanın maraqlarına uyğun olub-olmaması mübahisəlidir. Lakin sövdələşmə təhlili məqsədləri üçün Kaepernickin bəzi NFL oyun qurucuları ilə müqayisədə üstün qabiliyyəti tək başına heç bir şeyi sübut etmir.

Bu işə nəzər saldıqda yeni bir məsələnin ortaya çıxdığı nəzərə çarpır. Bu məsələ NFL klub sahiblərinin oyunçular arasında irqi ayrı-seçkilik etdikləri və konvensiyaya zidd hərəkətlər etdiklərini sübuta yetirməkdir. Lakin o, hətta klublar tərəfindən məhz qaradərili olduğu üçün ayrı-seçkiliyə məruz qaldığını sübuta yetirə bilsə də iddia predmeti olan əvvəlcədən klublar arasında sövdələşməni sübuta yetirməyəcəkdir. Lakin klubların ona qarşı irqi ayrı-seçkilik etdiyini və həmin klubların konvensiyanın müvafiq normalarını pozmasını sübuta yetirə bilsə, bu əsasla NFL klubları barədə yeni bir iddia ilə Equal Employment Opportunity Commission (Bərabər İşçi imkanları kommisiyasına) müraciət edə bilərdi.

Həmçinin Kaeprernickin digər müraciət edə biləcəyi orqan Milli Əmək münasibətləri Şurasıdır (The National Labor Relations Board). Həmin orqana müraciət edərkən o *Milli Əmək Münasibətləri Qanununun 7-ci* maddəsinin tələblərinin (*İşçilərin özlərini təşkil etmək, əmək təşkilatları yaratmaq, onlara qoşulmaq və ya onlara kömək etmək, seçdikləri nümayəndələr vasitəsilə kollektiv danışıqlar aparmaq və kollektiv sövdələşmələr və ya digər razılaşdırılmış fəaliyyətlərlə məşğul olmaq hüququ vardır. digər qarşılıqlı yardım və ya müdafiə, habelə əmək üzvlüyünü tələb edən müqavilənin bu hüquqa təsir edə biləcəyi hallar istisna olmaqla, hər hansı və ya bütün bu cür fəaliyyətlərdən çəkinmək hüququna malikdir*) pozulmasını əsas gətirə, yəni qarşılıqlı yardım və kömək məqsədilə fəaliyyətdə olmaq hüquqlarının pozulması − irqi ayrı-seçkiliyə qarşı milli marş protesti hüququnun pozulmasını nəzərdə tutaraq həmin orqana müraciət edə bilərdir (Violation of Section 7 of the National Labor Relations Act).

Kaepernikin başlatdığı milli marş protesti Amerikada dövlət səviyyəsinə qalxmış, hətta dövlət rəsmiləri bu proteslərə öz çıxışlarında münasibət bildirmişdir. Həmin vaxt ABŞ prezidenti Donald Tramp çıxışlarının birində bu protesti sərt bir şəkildə tənqid edərək NFL klublarının milli marş oxunan zaman ayağa qalxmayan oyunçular barədə tədbir görülməsi siqnallarını da vermişdir. Bəs bu tip dövlət rəsmilərinin təkidinin olması Kaepernickin irqi ayrı-seçkiliyə məruz qalaraq klublar arasında hər hansı bir sövdələşmənin olmasına işarədirmi.

NFL sahibinin Trump ilə razılaşması və ya hətta Kaepernick haqqında Trump ilə ünsiyyət qurması, CBA altında sövdələşmə təşkil etməyəcəkdir. Tramp CBA-nin tərəfi deyil və buna görə də CBA tərəfindən idarə olunmur.

Bununla belə, bir çox NFL klub sahibi Tramp vasitəsilə Kaepernick haqqında danışsaydı belə bəlkə də sövdələşmə sübutları olardı. Lakin Tramp sövdələşmə edən tərəf deyil, klub sahibləri olacaqdı.

Ən azı nəzəri olaraq, Kaepernickin Trampa qarşı başqa hüquqi müraciətləri də ola bilər. Federal cəza qanunu, 18 ABŞ Məcəlləsi § 227, Prezidentə "xüsusi müəssisənin məşğulluq qərarlarına yanlış təsir göstərməyi" qadağan edir. Bu normanın pozulması ilə bağlı Prezident Trump ittiham olunaraq və mühakimə olunarsa, o, vəzifəsindən kənarlaşdırıla və 15 ilə qədər həbs cəzasına məhkum edilə bilərdi (18 U.S. Code § 227).

Bununla belə, bu normanın real dünya vəziyyətinə uyğun praktiki olaraq tətbiq olunmayan mühüm üsullarla məhdudlaşdırır. Əsas yollardan biri: məsulliyətə cəlb etmək üçün dövlət ittihamçısının Trumpın "yalnız siyasi partiya mənsubiyyətinə əsaslanaraq təsir etmək niyyəti ilə" hərəkət etdiyini əsaslı şübhələrdən kənar sübut etməlidir. Məntiqlə, Trampın NFL sahiblərinə 2016-cı il seçkilərində səs vermədiyi bildirilən Kaepernicklə imza atmamağa göstəriş verdiyini sübut edən bir prokuroru təsəvvür etmək demək olar ki, mümkünsüz görünür.

Kolin Kaepernickin iddiası üzrə qoyduğu təzminatın miqdarının hesablanması məsələsi bu prosesi və məhkəmə qərarının verilməsinin ən çətin hissələrindən biridir. Kaepernick iddia etdiyi klubların sövdələşməsini maddi sübutlar vasiətəsi ilə sübuta yetirdiyi təqdirdə milyonlarla dollar təzminat və əldən çıxmış fayda tələb edərək iddiası təmin oluna bilərdi. Əgər nəzərə alsaq ki, gizlin sövdələşmə kaepernicə 10 milyon ABŞ dollar ziyan vurubsa onun təzminatı təqribən 30 milyon dollara qalxacaqdır (7).

Bunun səbəbi Kaepernikin iki növ təzminat almasıdır. Bunlardan birincisi ona sövdələşmənin nəticəsi olaraq itirdiyi pul vəsaiti üçün kompensasiyanın verilməsidir. Bunun səbəbi isə gizli sövdələşmənin qanuna zidd bir hərəkət olması və bu sövləşmənin cəzası olaraq dəymiş zərərin iki qatının iddaçıya verilməsidir.

Ümumiyyətlə, idmanda irqi ayrı-seçkiliyin qarşısının alınması üçün bir neçə addımların atılması mənim fikrimcə zəruridir. Aşağıda sadalanan halların klublar, idmançılar, tamaşacılar və digər idman subyektləri tərəfindən nəzərə alınmalıdır.

1. İrqi ayrı-seçkiliyə qarşı qanun qəbul etmək və həyata keçirmək, hamının idmana çıxışını təmin edən qanunvericilik hazırlamaq və irqçi hərəkətləri cəzalandırmaq.

Baxmayaraq ki, BMT-nin 1963-cü il tarixli BMT-nin İrqi Ayrıseçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Bəyannaməsinin əsasında hazırlanan İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Konvensiyanın mövcudluğu bu günədək idmanda irqi ayrı-seçkiliyin qarşını almamışdır. İrqi ayrı-seçkilik ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiyada müəyyən edilmişdir. Bu Konvensiyada irqi ayrı-seçkilik "irq, rəng, əcdad və ya milli və ya etnik mənşəyə görə hər hansı fərq, istisna, məhdudiyyət və ya üstünlük" kimi müəyyənedilir (8).

Populyarlığı ilə məhşur olan və ən çox irqçi hərəkətlərin özünü bir üzə verdiyi idman növlərindən biri də futboldur. Məhz idmanın bu sahəsində baş verən irqçi hərəkətlərin qarşısının alınması barədə atılmış addımlardan biri də FİFA-nın "Etik normalar" kodeksinin 13-cü və 23-cü bəndidir.

FİFA qaydalarına görə, üzv ölkələrin idman təşkilatları futbolda irqçiliklə ən təsirli şəkildə mübarizə aparmalı və irqçi davranışları cəzalandırmalıdır. FİFA-nın irqçilik və ayrı-seçkilik aktları ilə bağlı qaydaları FİFA İntizam Məcəlləsinin "Ayrı-seçkilik" adlı 13-cü maddəsində yer alır. Bu maddədə din, dil, irq, rəng, etnik, milli və ya sosial mənşə, siyasi fikir, sərvət, əlillik , Cins, cinsi oriyentasiya və ya hər hansı digər səbəbə görə ayrı-seçkilik qadağandır (FİFA "Etik normalar" kodeksi, 13-cü maddə).

İrqi ayrı-seçkiliyə qarşı növbəti sanksiya tədbiri FİFA "Etik normalar" kodeksi-nin 23-cü bəndidir. Bu bənddə "şəxslərin irqinə, dərisinin rənginə, etnik mənsubiyyətinə, milliyyətinə, sosial mənşəyinə, cinsinə, əlilliyinə görə təhqiramiz, ayrı-seçkilik və ya alçaldan sözlər və ya hərəkətlərlə ölkənin, bir şəxsin və ya bir qrup insanların ləyaqətini və ya bütövlüyünü təhqir olunmağının yolverilməz olduğu göstərilir. Bu maddənin pozulmasına görə ən azı 10.000 CHF məbləğində müvafiq cərimə, o cümlədən cəzanın maksimum həddi olaraq iki ilədək futbolla bağlı hər hansı fəaliyyətdə iştirak etmək qadağasını nəzərdə tutulur. Ağır hallarda və ya təkrarlama halında 5 il müddətində məhdudiyyət tətbiq olunur (FİFA "Etik normalar" kodeksi, 23-cü maddə).

Yerli normativ sənədlərə nəzər saldıqda idmanda irqçilik hallarının qarşısının alınması üçün atılmış addımlardan biri də AFFA-nın İntizam Məcəlləsində öz əksini tapmışdır. Həmin məcəllənin 42-ci maddəsi "İrqçilik" adlanır. Qısa formada həmin maddəyə nəzər salınan zaman ilkin olaraq irqi, dini və ya etnik mənsubiyyətinə görə hər hansı şəxsə qarşı aşağılayıcı və təhqiramiz hərəkət və

ya ifadəyə yol vermiş futbolçu 5 oyunluq kənarlaşdırılır və klub 3200 (üç min iki yüz) manat məbləğində cərimə olunduğu müəyyən olunur (AFFA-nın "İntizam Məcəlləsi").

Kluba və oyunçuya qarşı tətbiq olunan sanksiyanın ağırlığı mənim fikrimcə mübahisəli məsələdir. Nəzərə alsaq ki bu tip halların avropa futbolunda baş verməsi həmin irqçi hərəkətləri edən idmançılar və klubların daha ağır cəzalanmasına səbəb olur.

Əlavə olaraq qeyd etmək olar ki, 1984-cü ildə BOK tərəfindən yaradılmış Beynəlxalq İdman Arbitraj Məhkəməsi (CAS) idman sahəsində beynəlxalq arbitrajı öz üzərinə götürən ən effektiv qurumdur. Məhkəmə arbitraj qərarlarının tələb etdiyi bütün meyarlara, xüsusilə müstəqillik və qərəzsizliyə malikdir. Bu səbəbdən CAS-ın qərarları istənilən məhkəmə orqanının qərarı kimi məcburidir və tərəflər üçün sanksiya səlahiyyətinə malikdir. Arbitraj öz yurisdiksiyasını və legitimliyini tərəflərin könüllü arbitraj razılaşmasına əsaslanır (Hong-lin, 2008: 265). Əgər irqi ayrı-seçkiliklə bağlı yaranmış irqçi mübahisələrin həlli ilə bağlı tərəflərin razılığı mövcuddursa bu mübahisə məhz CAS tərəfindən də həll edilə bilər.

Digər bir məsələ isə analoji hadisələrin azərkeş tərəfindən törədilməsidir. Həmin şəxs 2 il müddətinə stadionlarda matç izləmək hüququndan məhrum edilir. Bu normanın işlənməsi və hansı formada realizə edilməsi barədə müxtəlif suallar mövcuddur. Mənim fikrimcə idmançıların irqi ayrı-seçkiliyə daha çox məhz azərkeşlər tərəfindən məruz qaldığı hallar daha çoxdur. Həmin azəekeşin həmin irqçi hərəkətləri etməsi ilə bağlı mövcud qanunvericilikdə əlavə və dəyişikliklərin edilməsi, ona qarşı müvafiq sanksiyaların tətbiqi zəruridir. Məsələn, irqçi ifadələr işlədən müəyyən fan clubların və yaxud tamaşaçının barəsində inzibati qaydada məsuliyyətin yaranması və bu əməlin dispozisiya hissə birbaşa olaraq irqçiliklə bağlı olmaldır.

2. İdmanda irqçiliyin qarşısının alınması barədə atıla biləcək növbəti addım yerli hakimiyyət orqanlarını müxtəlif mənşəli insanları bir araya gətirən idmanla bağlı fəaliyyətlər təşkil etməyə dəvət edilməsi ola bilər.

3. Sponsorları və reklam sənayesini azlıqlardan olan idmançılar haqqında stereotip təsəvvür yaratmamağa təşviq olunması. Bununla bağlı atılmış ən bariz nümunələrdən biri də yuxarıda qeyd olunan amerikan futbolçusu Kolin Kaepernikla bağlıdır. Məşhur idman geyimləri firması olan "Nike" 2018-ci ildə irqçiliyə məruz qalan Kolin Kaepernik ilə reklam müqaviləsi bağlayaraq onu reklam üzünə çevirmişdir. Bu hərəkət müxtəlif reaksiyalara, hətta bu firmanın müəyyən ştatlarda baykot edilməsi ilə nəticələnsə də insanlara irqçiliyin qarşı mübarizənin zəruri olduğunu çatdırmışdır.

4. İdmanda irqçi hadisələri müəyyən etmək və onlarla mübarizə aparmaq üçün yerli hüquq mühafizə orqanlarına irqçiliklə bağlı təlimlərin keçirilməsi, idman meydançalarında və kənarda irqçi insidentlərlə mübarizə üçün lazımi tədbirlərin yerinə yetirilməsi barədə maarifləndirmə tədbirləri keçirilməlidir.

5. Medianı idman tədbirləri zamanı baş verən irqçi hadisələr haqqında məlumat verməyə və irqçi cinayətkarların tətbiq etdiyi sanksiyaları təbliğ etməyə təşviq olunması.

## Nəticə

Yuxarıda qeyd etdiyim hüquqi əhəmiyyətli analizin gələcəkdə istər amerikan futbolu, istərsə də idmanın digər sahələrində oyunçulara qarşı irqi ayrı-seçkiliklə mübarizədə faydalı olacağı və idman hüquqşünaslarına müdafiə etdikləri tərəflərin pozulmuş hüquqlarının bərpası zamanı işin hallarına nəzər salarkən hansı hallara daha çox nəzər salmalarına kömək edə bilər.

## Ədəbiyyat

1. Webster's Ninth New Collegiate Dictionary. (1991).
2. FRA. (2010).
3. Lissabon müqaviləsi. (2007).
4. Racism in Sports. (2021), s.42.
5. Violation of Section 7 of the National Labor Relations Act.
6. 18 U.S. Code § 227.

7. https://www.si.com/nfl/2017/10/15/colin-kaepernick-collusion-lawsuit-against-nfl
8. https://web.archive.org/web/20151125184818/http://www.ohchr.org/EN/ProfessionalInterest/Pages/CERD.aspx (14 Mart 2021)
9. FİFA "Etik normalar" kodeksi, 13-cü maddə.
10. FİFA "Etik normalar" kodeksi, 23-cü maddə.
11. AFFA-nın "İntizam Məcəlləsi", 42-ci maddə.
12. Hong-lin, YU. (2008). "A Theoretical Overview of the Foundations of International Commercial Arbitration". Contemporary Asia Arbitration Journal, V: 1, I: 2, p.265.

Göndərildi: 15.11.2022 Qəbul edildi: 08.03.2023